Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 181 (8204) ÇƏRŞƏNBƏ, 21 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Bölgələr tarazlı, davamlı inkişaf mərhələsindədir

## Prezident İlham Əliyevin sosial-iqtisadi strategiyası əsasında reallaşan dövlət proqramları regionların simasını büsbütün dəyişib

**2003-cü ildə Azərbaycanda keçirilən prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək "əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə regionların problemləri ilə məşğul olacağam" vədini verən və sözünün arxasında duran cənab İlham Əliyevin bu müddət ərzində Prezident kimi regionların sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər bölgələrin simasını büsbütün dəyişib.**

Bölgələrin hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin və əvvəlki dövlət proqramlarının məntiqi davamı olan III Dövlət Proqramı ölkənin ardıcıl və dayanıqlı iqtisadi inkişafının təmin olunmasına, regionların uğurlu inkişafına əhəmiyyətli töhfəsini verdi. Sözün əsl mənasında, regionların simasını köklü surətdə dəyişdi. Regionların indiki vəziyyəti 16 il bundan əvvəlki vəziyyətindən, həqiqətən, fundamental dərəcədə fərqlənir.

Bütün bunlar təsdiq edir ki, Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayır. Prezidentin mütəmadi olaraq bölgələrə səfərləri, verdiyi tapşırıqların icrası ilə yerində maraqlanması, tövsiyə və göstərişləri, yerlərdə vətəndaşlarla səmimi görüşləri də bunun əyani sübutudur.

Dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin əsas məqsədi paytaxt Bakı ilə yanaşı bölgələrin də hərtərəfli inkişafının təmin edilməsidir. Bunun nəticəsidir ki, bölgələr tarazlı şəkildə inkişaf edir, yeni-yeni infrastrukturlar qurulur, asfalt yollar çəkilir, körpülər tikilir, ucqar kəndlər qazlaşdırılır, infrastruktur daha da yaxşılaşdırılır. Demək olar ki, kənd yerlərində mövcud olan köhnə yolların böyük hissəsi təmir olunub və yüksək standartlar səviyyəsinə qaldırılıb. Bütün bunlar da həm əhalinin rifahının yaxşılaşmasına, həm də iqtisadiyyatın dinamik inkişafına çox müsbət təsir göstərir.

Eləcə də regionlarda yeni müəssisələr - sənaye məhəllə parkları, zavod-fabriklər, aqroparklar yaradılır ki, bu da insanların işlə təminatında vacib rol oynayır. Təbii ki, bu amil əhalinin sosial rifah halının daha da yüksəlməsi ilə müşayiət olunur. Hazırda bu proses davam etməkdədir. Bir zamanlar iş dalınca paytaxta üz tutanlar indi rayona, kəndə geri qayıdırlar. Çünki yeni müəssisələrin sayı artdıqca iş yerləri də artır və işçi qüvvəsinə tələbat yaranır.

Ölkədə sosial həyatın daha da yaxşılaşmasında, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişərək yeni proqressiv çalarlar almasında aparılan sistemli dövlət siyasətinin mühüm rolu var. İstehsal müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin istifadəsi, o cümlədən bölgələrin yerli və ənənəvi istehsal gücündən yararlanmaq, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması, sahibkarların fəaliyyətinin daha da stimullaşdırılması istiqamətində atılan addımlar, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin olması və digər kompleks tədbirlərin görülməsi bu gün bölgələrin inkişafını daha da sürətləndirib.

İyulun 31-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən sosial-iqtisadi sahəyə aid müşavirədə dövlət başçısı bu məsələyə toxunarkən vurğulayıb ki, artıq ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizə yaxınlaşır. Nadir ölkələrdə bu qədər qazlaşdırma aparılır. Elektrik enerjisi ilə bağlı böyük generasiya gücləri yaradılıb və Azərbaycan bu baxımdan yenə də ön sıralardadır. Həm elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və gözəl nəticələr var: "Biz öz enerji təhlükəsizliyimizi təmin edə bilmişik. Bu il mövcud stansiyalarda aparılan yenidənqurma işləri nəticəsində əlavə generasiya gücü əldə ediləcək. Bütün bölgələrimizdə içməli su layihələri icra edilir və bu il də bir neçə şəhərin içməli su problemi həll olunacaq. Buna da çox böyük diqqət göstərilir. Hər il təxminən 100 min hektar torpağın suvarılması ya yaxşılaşır, ya da suvarılmayan torpaqlara su çəkilir. Bu da çox önəmli məsələdir və bu məsələ ilə bağlı əlavə addımlar atılacaq".

Ardı 5-ci səh.

## "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12 (I kitab), maddə 2221; 2018, № 7 (I kitab), maddə 1392; 2019, № 1, maddələr 19, 33, 50, № 5, maddələr 793, 815; Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1596-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 1.1.2-1-ci, 1.1.2-2-ci və 1.1.3-1-ci maddələr əlavə edilsin:

"1.1.2-1. müştərək sığorta - müştərək sığorta fondu hesabına sığorta ödənişinin verilməsi, risklərin, o cümlədən fondda yaranan gəlir və zərərin bölüşdürülməsinə əsaslanan münasibətlər sistemi;

1.1.2-2. müştərək sığorta fondu - fiziki və hüquqi şəxslərin əmlak mənafelərinin müştərək sığorta əsasında sığorta etdirilməsi məqsədilə həmin şəxslərin ödədiyi, habelə dövlət büdcəsindən bu məqsədlə ayrılan vəsaitin məcmusu;";

"1.1.3-1. müştərək sığortaçı - müstəsna olaraq müştərək sığorta əsasında fəaliyyət göstərmək üçün müvafiq lisenziyaya malik olan sığortaçı;".

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1618-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1618-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 19 avqust 2019-cu il*

# Mərhəmət ünvanı



## 1 saylı körpələr evinin sakinləri itirdikləri analarını Mehriban xanımın timsalında tapıblar

... O məşum gündən 2 həftə keçmişdi. Bu 14 gün ərzində nələr çəkdiyini bir özü bilirdi, bir də Allahı. Necə yaşamışdı, necə nəfəs almışdı, havadaydımı, göydəydimi - bilmirdi. Yuxusu da ərşə çəkilmişdi, yayın istisində yatağına qar dolmuşdu elə bil. Nə illah edirdisə, bircə saat gözünün acısını ala bilmirdi. Birtəhər yuxuya gedəndə isə gördüyü kabusdan hövlnak ayılırdı. Hər dəfə eyni yuxunu görürdü: iki balaca, ağ, toppuş əl gah paltarının yaxasından, balağından tutur, gah da ayaqlarına sarılıb onu getməyə qoymurdu... Körpənin fasiləsiz çığırtısı isə göyün yeddinci qatına çatırdı... Bu, onun günlər öncə dünyaya gətirdiyi, lakin imtina edərək körpələr evinə qoyduğu körpəsi idi. Anasına tutunub, onu atmaması üçün fəryad qoparırdı...

Daha dözə bilmədi. Çəkdiyi peşmançılıqdan, vicdan əzabından az qalırdı havalana. Nəhayət, özünü toparlayıb qəti qərarını verdi. Valideynlərinin, el-obanın, ətrafdakıların töhmətinə, qınağına rəğmən balasını körpələr evindən götürüb özü saxlayacaqdı. Onunla bərabər özü də böyüyəcəkdi...

Ardı 4-cü səh.

## İslahatlar ölkənin iqtisadi inkişafını stimullaşdırır

Ölkənin dinamik inkişafında həyata keçirilən iqtisadi islahatların rolu böyükdür. Xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı görülən məqsədyönlü tədbirlər öz müsbət nəticəsini verir. Bu sahə üzrə məhsul istehsalı ildən-ilə artır. Burada hazırlanan məhsulların bir çoxu ölkənin daxili tələbatını ödəməklə yanaşı ixrac da olunur. Belə hal idxalın azalmasına, ixracdan daha çox gəlir əldə edilməsinə imkan yaradır.

Bunun nəticəsidir ki, cari ilin birinci yarısında iqtisadiyyatda ümumi 2,4, qeyri-neft sektorunda 3,2, qeyri-neft sənayesində 15,7, ticarət dövriyyəsində 20 faizdən çox artım qeydə alınıb. Bununla yanaşı, qeyri-neft ixracı 15, kənd təsərrüfatı məhsullarının istehsalı 13 faiz artıb. Valyuta ehtiyatlarımız rekord həddə çataraq 49 milyard dollar səviyyəsində olub. Hesabat dövründə əhalinin gəlirləri 2,5 faizlik inflyasiyanı üstələyərək 6,6 faiz artıb.

Həyata keçirilən iqtisadi strategiyanın bir məqsədi də ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bunun üçün regionlarda müxtəlif iqtisadi layihələr icra edilir, bölgələrdə iri sənaye və kənd təsərrüfatı müəssisələri yaradılır. İqtisadi inkişafın regionlarla paylaşması həm inkişaf, həm də sosial məsələlərin həlli baxımından əhəmiyyətlidir.

Regionlarda yaradılan 9 sənaye park və məhəlləsi ölkəmizin iqtisadi inkişafına öz töhfəsini verir. Artıq sənaye parkları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident isə fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı faktiki olaraq investisiya kimi qoyulub. Layihələrin icrası nəticəsində 11 mindən çox yeni iş yeri açılıb.

Ardı 4-cü səh.



# Neft və qaz əsas iqtisadi potensial olaraq qalır

## Bu, Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bir daha vurğulanıb

Azərbaycan iqtisadiyyatı dinamik inkişaf edir, ölkədə böyük infrastruktur layihələri icra olunur. Bu ilin əvvəlindən qarşıya qoyulan vəzifələr də müvəffəqiyyətlə yerinə yetirilir.

Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bu barədə ətraflı bəhs olunub. Eyni zamanda qeyd edilib ki, iqtisadi artım üçün yeni mənbələr axtarılmalıdır. İnkişaf dayanıqlı olmalıdır və burada qeyri-neft sektorunun üzərinə mühüm vəzifə düşür. Bununla belə, neft-qaz sektorunun iqtisadi inkişaf üçün əsas sektor olaraq qaldığı vurğulanıb.

Dövlət başçısı bu barədə belə demişdir: "Ancaq onu da bilməliyik ki, bu gün iqtisadi inkişafımız üçün əsas sektor neft-qaz sektorudur. Bu sahədə də çox önəmli addımlar atılıb... "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlir əldə edəcəkdir. Hesab edirəm ki, altı ayda görülmüş işlər təqdirəlayiqdir".

Ardı 5-ci səh.

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 17-ci və 24-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1 (I kitab), maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1534-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD, 1562-VQD nömrəli, 3 may tarixli 1577-VQD, 1583-VQD nömrəli, 17 may tarixli 1595-VQD nömrəli və 13 iyun tarixli 1609-VQD nömrəli qanunları) 220-ci maddəsinin adında, 220.1-ci və 220.2-ci maddələrində "sanitariya normalarının və qaydalarının, gigiyena normativlərinin" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30, № 11, maddə 2211, № 12 (I kitab), maddə 2521; 2019, № 1, maddə 30; Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1584-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 9.0.5-ci maddəyə "(şəhadətnamələrini)" sözündən sonra ", qida məhsullarına münasibətdə qida təhlükəsizliyi (sağlamlıq) sertifikatını, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışı" sözləri əlavə edilsin;

**2.2.** 92.2.3-cü maddəyə "(şəhadətnamələrlə)" sözündən sonra ", qida məhsullarına münasibətdə qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı ilə, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarış ilə" sözləri əlavə edilsin.

**Maddə 3.** "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 362; 2002, № 5, maddə 241; 2004, № 2, maddə 57; 2007, № 10, maddə 938; 2014, № 8, maddə 959, № 11, maddə 1366) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 2-ci maddə üzrə:

**3.1.1.** həmin maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Balıqçılıq haqqında qanunvericilik bu Qanundan, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan və digər normativ hüquqi aktlardan ibarətdir.";

**3.1.2.** həmin maddənin ikinci hissəsinə "məhsulunun" sözündən sonra "minimum" sözü əlavə edilsin;

**3.2.** 13-cü maddə üzrə:

**3.2.1.** birinci və ikinci hissələr aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasında minimum keyfiyyəti və təhlükəsizliyi qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən, mənşəyi və keyfiyyəti barədə sənədləri olan və qida təhlükəsizliyi qeydiyyatına alınmış subyektlər tərəfindən istehsal edilmiş balıq məhsulları ticarət dövriyyəsinə daxil edilə bilər.

Balıq məhsulları "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq qablaşdırılır və etiketləşdirilir.";

**3.2.2.** altıncı hissədə "Azərbaycan Respublikasının qanunvericiliyində" sözləri "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununda" sözləri ilə əvəz edilsin;

**3.2.3.** yeddinci hissə ləğv edilsin.

**Maddə 4.** "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 8; 2001, № 12, maddə 736; 2003, № 1, maddə 7; 2004, № 1, maddə 6; 2007, № 6, maddə 560; 2009, № 2, maddələr 49, 55; 2011, № 4, maddə 257; 2013, № 11, maddə 1290; 2014, № 11, maddə 1365; 2015, № 11, maddə 1252; 2017, № 5, maddələr 718, 747; 2018, № 4, maddə 642, № 12 (II kitab), maddə 2492) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 1-ci maddənin birinci hissəsinin on üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"qida (yeyinti) məhsulları sahəsində fəaliyyət göstərən subyektlər - qida zəncirinin bütün mərhələlərində fəaliyyəti həyata keçirən təsərrüfat subyektləri, həmçinin dövlət orqanları (qurumları), bələdiyyələr.";

**4.2.** 5-ci maddə üzrə:

**4.2.1.** birinci hissədən "standartlar," sözü çıxarılsın;

**4.2.2.** ikinci hissə aşağıdakı redaksiyada verilsin:

"Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların hazırlanması və qəbulu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.";

**4.2.3.** üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Qida məhsullarının istehsalı üçün istifadə olunan bütün avadanlıq və vasitələrə dair qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir.";

**4.2.4.** dördüncü hissədən "texniki reqlamentlərin və" sözləri çıxarılsın;

**4.3.** 6-cı maddənin üçüncü hissəsinin birinci cümləsində "qanunvericiliyinə uyğun olaraq" sözləri "müvafiq qaydada" sözləri ilə əvəz edilsin;

**4.4.** 7.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"7.3. Vergi uçotuna alınmasına baxmayaraq, qida təhlükəsizliyi qeydiyyatına alınmamış təsərrüfat subyektlərinin qida məhsulları sahəsində fəaliyyət göstərməsi qadağandır.";

**4.5.** 8-ci maddənin birinci hissəsinə "istehsalı" sözündən sonra ", qablaşdırılması" sözü əlavə edilsin;

**4.6.** 9-cu maddə üzrə:

**4.6.1.** birinci hissənin üçüncü abzasında "və dövlət reyestrində qeydiyyatı" sözləri çıxarılsın;

**4.6.2.** yeddinci hissədən "və müvafiq qaydada dövlət reyestrində qeydiyyata alınır" sözləri çıxarılsın;

**4.7.** 11-ci maddənin ikinci hissəsindən "texniki reqlamentlərdə və" sözləri, 11-ci maddənin üçüncü hissəsindən, 12-ci maddədən, 13-cü maddənin ikinci və üçüncü hissələrindən, 14-cü maddənin birinci hissəsindən və 21-ci maddənin dördüncü abzasından "texniki reqlamentlərin və" sözləri çıxarılsın;

**4.8.** 14-cü maddənin ikinci hissəsinin birinci cümləsi çıxarılsın.

**Maddə 5.** "Taxıl haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 491; 2004, № 2, maddə 57; 2007, № 5, maddə 397; 2011, № 2, maddə 71; 2014, № 11, maddə 1373; 2016, № 7, maddə 1241; 2017, № 5, maddə 717; 2018, № 1, maddə 17) aşağıdakı dəyişikliklər edilsin:

**5.1.** 1-ci maddə üzrə:

**5.1.1.** 1.0.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.4. taxılın və taxıl emalı məhsullarının minimum keyfiyyəti - taxıl məhsullarının istehlak xassələrinin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğunluğu;";

**5.1.2.** aşağıdakı məzmunda 1.0.5-ci maddə əlavə edilsin:

"1.0.5. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar - "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə müəyyən edilmiş texniki normativ hüquqi aktlar.";

**5.2.** 2.1-ci maddəyə "bu Qanundan" sözlərindən sonra ", "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan" sözləri əlavə edilsin;

**5.3.** 2.2-ci maddəyə "təşkili," sözündən, 3.2, 10.0.4, 13.3, 15.1, 15.2, 15.3 və 15.3.1-ci maddələrə, 15-ci maddənin adına "məhsullarının" sözündən sonra "minimum" sözü əlavə edilsin, 6.1-ci maddəyə "keyfiyyətinin" sözündən əvvəl "minimum" sözü əlavə edilsin, IV fəslin adına "MƏHSULLARININ" sözündən sonra "MİNİMUM" sözü əlavə edilsin;

**5.4.** 8.3-cü maddədə "standartlara və tələblərə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri ilə əvəz edilsin;

**5.5.** 11.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"11.2. Azərbaycan Respublikasına idxal olunan taxıl məhsulları müvafiq qaydada tanınmış və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olmalıdır. İdxal olunan taxıl məhsullarının istehsalçısı qida təhlükəsizliyi qeydiyyatından keçdiyi halda həmin istehsalçının məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı tələb olunmur.";

**5.6.** 12-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 12. Taxıl məhsullarının minimum keyfiyyətinin təmin edilməsi**

12.1. Taxıl məhsullarının minimum keyfiyyəti "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə uyğun olaraq təmin edilir.

12.2. Keyfiyyət göstəricilərinin müvafiq standartda müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə istehsalçının öz istəyi əsasında taxıl məhsulları akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır. Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.";

**5.7.** 13-cü maddə üzrə:

**5.7.1.** adında "keyfiyyətinə dair tələblərin normalaşdırılması" sözləri "minimum keyfiyyətinə dair tələblər" sözləri ilə əvəz edilsin;

**5.7.2.** 13.1-ci maddəyə "Taxılın" sözündən sonra "minimum" sözü əlavə edilsin, həmin maddədə "standartların və tələblərin" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

**5.7.3.** 13.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13.2. Taxıl emalı məhsullarının minimum keyfiyyətinin təmin olunması sahəsində tələblər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən olunur.";

**5.8.** 14.3-cü, 14.4-cü və 14.5-ci maddələr ləğv edilsin;

**5.9.** 15-ci maddə üzrə:

**5.9.1.** 15.1-ci, 15.3.1-ci və 15.3.7-ci maddələrdə "standartlara və tələblərə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri ilə əvəz edilsin;

**5.9.2.** 15.3.7-ci maddəyə "keyfiyyət" sözündən əvvəl "minimum" sözü əlavə edilsin;

**5.9.3.** aşağıdakı məzmunda 15.3.7-1-ci maddə əlavə edilsin:

"15.3.7-1. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada sahibkarlıq subyektlərində yoxlamaların aparılmasını, o cümlədən məhdudlaşdırıcı tədbirlərin tətbiqini həyata keçirmək;";

**5.9.4.** 15.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"15.4. Taxıl məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarəti "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə uyğun olaraq həyata keçirilir.".

**Maddə 6.** "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 3; 2003, № 1, maddə 15, № 12 (I kitab), maddə 674; 2005, № 4, maddə 278; 2007, № 5, maddə 397, № 10, maddə 938; 2008, № 12, maddə 1044; 2013, № 11, maddə 1291; 2016, № 1, maddə 29; 2017, № 5, maddə 716, № 7, maddə 1264; 2018, № 6, maddə 1163; 2019, № 4, maddə 577) aşağıdakı dəyişikliklər edilsin:

**6.1.** 2.1-ci maddəyə "bu Qanundan" sözlərindən sonra ", "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan" sözləri əlavə edilsin;

**6.2.** 5.0.7-ci maddəyə, 27-ci maddənin adına "məhsullarının" sözündən sonra "minimum" sözü, VI fəslin adına isə "MƏHSULLARININ" sözündən sonra "MİNİMUM" sözü əlavə edilsin;

**6.3.** aşağıdakı məzmunda 6.4-cü və 6.5-ci maddələr əlavə edilsin:

"6.4. Üzüm əkini materiallarının istehsalı, saxlanması, qablaşdırılması, daşınması və satışı qaydalarını və şərtlərini, habelə keyfiyyət göstəricilərini nizamlayan təlimatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**6.5.** Yüksək keyfiyyətli (markalı) şərab və brendi (konyak) məhsullarının hazırlanması daxil olmaqla, üzümlüklərin salınması və üzüm əkini materiallarının yetişdirilməsi ilə məşğul olan hüquqi və fiziki şəxslər onların sort tərkibinin təmizliyinə və fitosanitar vəziyyətinə, sortluq və əkin keyfiyyətinə görə qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.";

**6.4.** 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 7. Əmtəəlik üzüm məhsulları və üzüm məhsullarının istehsalı texnologiyaları üzrə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar**

Əmtəəlik üzüm məhsulları və üzüm məhsullarının istehsalı texnologiyaları üzrə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə müəyyən edilmiş hallarda və qaydada qəbul edilir.";

**6.5.** 8.3-cü maddədə "qüvvədə olan normativ sənədlərlə" sözləri "bu Qanunun 7-ci maddəsində göstərilən texniki normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

**6.6.** 9.1-ci maddədə "müvafiq standartların tələblərinə, təsdiq edilmiş aqrotexniki və texnoloji təlimatlara, habelə sanitariya normalarına və qaydalarına" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

**6.7.** 9.2, 12.4, 14.3.3, 14.8, 14.9, 14.14, 15.8, 16, 21.3, 23, 24.2, 24.3, 25, 26.3-cü maddələr ləğv edilsin;

**6.8.** 9.3-cü maddədə "Azərbaycan Respublikasının qanunvericiliyinə" sözləri "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci və bu Qanunun 15-ci maddələrinə" sözləri ilə əvəz edilsin;

**6.9.** 10.3-cü maddədə "müvafiq standartların tələblərinə, sanitariya normalarına və qaydalarına riayət edilməklə, təsdiq edilmiş texnoloji təlimatlara" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

**6.10.** 11.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"11.8. Keyfiyyət göstəricilərinin müvafiq standartla müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə istehsalçının öz istəyi əsasında şərabçılıq məhsulları akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır. Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.";

**6.11.** 12-ci maddə üzrə:

**6.11.1.** 12.3-cü maddənin birinci cümləsində "qüvvədə olan standartların" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

**6.11.2.** 12.3-cü maddənin ikinci cümləsində "texnoloji təlimat tərtib edilir və məhsulun attestasiyası zamanı təsdiq olunur" sözləri "reseptura təsdiq olunur" sözləri ilə əvəz edilsin;

**6.11.3.** 12.6-cı maddənin birinci cümləsində "müvafiq qaydada təsdiq edilmiş normativ sənədlərə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsi çıxarılsın;

**6.12.** 13.5-ci maddədə "müvafiq standartların tələblərinə, təsdiq edilmiş texnoloji təlimatlara, habelə sanitariya normalarına və qaydalarına" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

**6.13.** 14-cü maddə üzrə:

**6.13.1.** 14.10-cu maddə aşağıdakı redaksiyada verilsin:

"14.10. Yeni ad altında istehsal olunan şərabçılıq məhsulları "Patent haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq patentləşdirilir.";

**6.13.2.** 14.12-ci maddədən "qanunvericiliyə uyğun olaraq dövlət reyestrində qeydiyyata alınmalı, istehlak bazarına attestasiya edilməli və" sözləri çıxarılsın;

**6.13.3.** 14.13-cü maddədən ", dövlət reyestrində qeydiyyata alınmasına və attestasiyasına" sözləri çıxarılsın;

**6.14.** 15.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"15.1. Şərabçılıq məhsullarının qablaşdırılması, etiketləşdirilməsi, saxlanması və daşınması "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin tələblərinə uyğun olaraq həyata keçirilir.";

**6.15.** 15-1.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"15-1.6. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən şərabçılıq məhsullarının istehsalçıları və ya idxalçıları qida təhlükəsizliyi qeydiyyatına alındıqda və ya qida təhlükəsizliyi qeydiyyatından keçməyən idxalçının məhsulu qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olduqda həmin məhsulların reklamına icazə verilir. Reklamda istehsalçının qida təhlükəsizliyi qeydiyyatı və ya qida təhlükəsizliyi sertifikatının nömrəsi, verilməsi tarixi və onu verən orqanın adı göstərilməlidir.";

**6.16.** 20.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"20.3. Azərbaycan Respublikasına idxal olunan şərabçılıq məhsulları müvafiq qaydada tanınmış və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olmalıdır. İdxal olunan şərabçılıq məhsulunun istehsalçısı qida təhlükəsizliyi qeydiyyatından keçdiyi halda həmin istehsalçının məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı tələb olunmur. Genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilərək istehsal olunan şərabçılıq məhsullarının Azərbaycan Respublikasına idxalına yol verilmir.";

**6.17.** 21.4.4-cü və 21.4.5-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"21.4.4. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən şərabçılıq məhsullarının istehsalçıları və ya idxalçıları qida təhlükəsizliyi qeydiyyatına alınmadıqda və ya qida təhlükəsizliyi qeydiyyatından keçməyən idxalçının məhsulunun qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı olmadıqda;

**21.4.5.** məhsullar qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun gəlmədikdə və ya genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməklə istehsal olunduqda;";

**6.18.** 22-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 22. Məhdudlaşdırıcı tədbirlərin tətbiqi**

22.1. Sahibkarlıq subyektlərində yoxlamaların aparılması, o cümlədən məhdudlaşdırıcı tədbirlərin tətbiqi "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən qaydada həyata keçirilir.

22.2. Dövriyyədən çıxarılmış şərabçılıq məhsullarının məhv edilməsi və ya istifadə edilməsi "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.

22.3. Fövqəladə və ya hərbi vəziyyətin qüvvədə olduğu müddətdə onun tətbiq edildiyi ərazidə şərabçılıq məhsullarının dövriyyəsi üzrə "Fövqəladə vəziyyət haqqında" və "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq xüsusi rejim yaradıla bilər.";

**6.19.** 26.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"26.1. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq istehsalçıları və ya idxalatçıları qida təhlükəsizliyi qeydiyyatına alınmayan və qida təhlükəsizliyi sertifikatına malik olmayan, patent hüququ başqasına məxsus olan, etiketində istehsal olunduğu yer göstərilməyən və ya yanlış göstərilən, istehsal mənşəyi və ya əmtəə nişanı yanlış olan şərabçılıq məhsulları saxta hesab olunur.";

**6.20.** 27-ci maddə üzrə:

**6.20.1.** 27.1-ci maddədə "normativ sənədlərin tələblərinə və gigiyenik normativlərə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri ilə əvəz edilsin;

**6.20.2.** 27.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"27.2. Şərabçılıq məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.";

**6.20.3.** 27.3-cü maddə ləğv edilsin.

**Maddə 7.** "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 10) aşağıdakı dəyişikliklər edilsin:

**7.1.** 2-ci maddəyə "bu Qanundan" sözlərindən sonra ", "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan" sözləri əlavə edilsin;

**7.2.** 5.0.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"5.0.5. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə müvafiq olaraq yodlaşdırılmış duzun istehsalı, daşınması, saxlanması, qablaşdırılması, etiketləşdirmə və satış şərtlərini müəyyən edən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların məcburiliyi.";

**7.3.** 6.2, 6.3 və 11-ci maddələrə ismin müvafiq hallarında "keyfiyyət" sözündən əvvəl "minimum" sözü əlavə edilsin, həmin maddələrdə ismin müvafiq hallarında "standartlar və tələblər" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələbləri" sözləri ilə əvəz edilsin;

**7.4.** 7-ci maddə üzrə:

**7.4.1.** 7.1-ci maddənin birinci cümləsinə "keyfiyyəti" sözündən əvvəl "minimum" sözü əlavə edilsin və həmin cümlədə "standartlara və tələblərə" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri ilə əvəz edilsin;

**7.4.2.** 7.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.2. Duzun istehsalı, daşınması, saxlanması, qablaşdırılması, etiketləşdirmə və satış şərtləri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.";

**7.4.3.** 7.3-cü maddə ləğv edilsin;

**7.5.** 8-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 8. Yodlaşdırılmış duzun istehsalı və idxalına dair tələblər**

8.1. Azərbaycan Respublikasında yodlaşdırılmış duzun istehsalçılarının fəaliyyəti qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun təmin edilməsi məqsədi ilə yoxlanılır, məhsulları ekspertizadan keçirilir və həmin subyektlər qida təhlükəsizliyi qeydiyyatına alınır.

8.2. Azərbaycan Respublikasına idxal olunan yodlaşdırılmış duz müvafiq qaydada tanınmış və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olmalıdır. İdxal olunan yodlaşdırılmış duzun istehsalçısı qida təhlükəsizliyi qeydiyyatından keçdiyi halda həmin istehsalçının məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı tələb olunmur.

8.3. Yodlaşdırılmamış duzun qida və yem məqsədi ilə istehsalı, satışı və Azərbaycan Respublikasına idxalı qadağandır.

8.4. Keyfiyyət göstəricilərinin müvafiq standartla müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə istehsalçının öz istəyi əsasında yodlaşdırılmış duz akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır. Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.".

**Maddə 8.** "Çayçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 881; 2007, № 12, maddə 1218; 2016, № 7, maddə 1242; 2017, № 1, maddə 7, № 5, maddə 715, № 12 (I kitab), maddə 2209; 2019, № 1, maddə 10) aşağıdakı dəyişikliklər edilsin:

**8.1.** 1.0.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.6-cı maddə əlavə edilsin:

"1.0.6. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar - "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə müəyyən edilmiş texniki normativ hüquqi aktlar.";

**8.2.** 2.1-ci maddəyə "bu Qanundan" sözlərindən sonra ", "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan" sözləri əlavə edilsin;

**8.3.** 2.2-ci maddəyə "keyfiyyətinə" sözündən əvvəl "minimum" sözü əlavə edilsin;

**8.4.** 6.0.4-cü maddəyə "məhsullarının" sözündən sonra "minimum" sözü əlavə edilsin;

**8.5.** aşağıdakı məzmunda 10.4-cü maddə əlavə edilsin:

"10.4. Çay əkini materiallarının istehsalı, saxlanması, qablaşdırılması, daşınması və satışı qaydalarını və şərtlərini, habelə keyfiyyət göstəricilərini tənzimləyən təlimatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

**8.6.** 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 11. Yaşıl çay yarpağının istehsalı texnologiyaları üzrə hüquqi tənzimləmə**

11.1. Yaşıl çay yarpağının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində normalaşdırma, bu məhsulların keyfiyyəti və təhlükəsizliyinə dair tələblər, onların istehsal, daşınma, saxlanma, qablaşdırılma, etiketləşdirilmə və satış şərtləri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

11.2. Yaşıl çay yarpağının becərilməsində istifadə edilən kimyəvi maddələrin, bioloji və digər preparatların yol verilən hədləri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla tənzimlənir.";

**8.7.** 12-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 12. Yaşıl çay yarpağının emalı, çay məhsullarının istehsalı və çay məhsullarının istehsalı üzrə texnoloji avadanlıqlara dair tələblər**

12.1. Yaşıl çay yarpağının emalı xüsusi texnologiyalar əsasında yarpağın ilkin emalını və çay məhsullarının istehsalını əhatə edir və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara və təsdiq edilmiş resepturaya uyğun olaraq həyata keçirilir.

12.2. Əmtəəlik yaşıl çay yarpağının məhsullarının istehsalı üçün istifadə olunan bütün avadanlıq və vasitələrə dair qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir.

12.3. Çay məhsullarının tərkibindəki kofeinin və taninin miqdarı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilmiş həddən az, nəmliyi və metalmaqnit qarışıqlarının miqdarı isə çox ola bilməz.

12.4. Çay məhsullarının istehsalı üzrə texnoloji avadanlıqlar mütləq qaydada elektron nəzarət cihazları və avtomatlaşdırılmış kütlə nəzarət sayğacları ilə təchiz edilməlidir.

12.5. Yaşıl çay yarpağının emalında tərkibində narkotik vasitələr və psixotrop maddələr olan kimyəvi, bioloji və digər preparatların istifadəsinə yol verilmir.

12.6. Yeni çay markası istehsalata hazırlanarkən onların tərkibinin, keyfiyyət göstəricilərinin, insan orqanizmi üçün təhlükəsizliyinin və yararlılıq müddətinin müvafiq qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğunluğu müəyyən olunur, bu göstəricilər məhsulun normativ sənədlərinə daxil edilir.

12.7. Keyfiyyət göstəricilərinin müvafiq standartla müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə istehsalçının öz istəyi əsasında çay məhsulları akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır. Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.";

**8.8.** 13-cü maddə üzrə:

**8.8.1.** 13.1-ci maddədə "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq" sözləri "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin tələblərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

**8.8.2.** 13.2-13.4, 13.6, 14, 15, 16.5 və 20-ci maddələr ləğv edilsin;

**8.9.** 16.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"16.4. Çay məhsullarının yeni markası "Patent haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq patentləşdirilir.";

**8.10.** 17-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 17. Çay məhsullarının reklamı**

Çay məhsullarının reklamı "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.";

**8.11.** 18.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"18.3. Azərbaycan Respublikasına idxal olunan çay məhsulları müvafiq qaydada tanınmış və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olmalıdır. İdxal olunan çay məhsulunun istehsalçısı qida təhlükəsizliyi qeydiyyatından keçdiyi halda həmin istehsalçının məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı tələb olunmur. Genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilərək istehsal olunmuş çay və çay məhsullarının Azərbaycan Respublikasına idxal edilməsinə yol verilmir.";

**8.12.** 19-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 19. Məhdudlaşdırıcı tədbirlərin tətbiqi**

19.1. Sahibkarlıq subyektlərində yoxlamaların aparılması, o cümlədən məhdudlaşdırıcı tədbirlərin tətbiqi "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

19.2. Dövriyyədən çıxarılmış çay məhsullarının məhv edilməsi və ya istifadə edilməsi "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.";

**8.13.** 22-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 22. Çay məhsullarının saxtalaşdırılmadan qorunması və minimum keyfiyyətinə nəzarət**

22.1. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq istehsalçıları və ya idxalçıları qida təhlükəsizliyi qeydiyyatına alınmayan və qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olmayan, patent hüququ başqasına məxsus olan, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun istehsal edilməmiş çay məhsulları saxta hesab olunur.

22.2. Çay məhsullarının minimum keyfiyyətinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

22.3. İstehlakçılar və qeyri-hökumət təşkilatları çay məhsullarının keyfiyyətinə nəzarəti həyata keçirə bilərlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin ikinci və üçüncü hissələrində, "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsində, "Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 10.4-cü və 12.2-ci maddələrində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin ikinci və üçüncü hissələrində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.3. həmin Qanunun 11.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.4. "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsində, 20.3-cü maddəsinin birinci cümləsində və 27.2-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.5. həmin Qanunun 20.3-cü maddəsinin birinci cümləsində və 27.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.6. "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.7. həmin Qanunun 8.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.8. "Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 10.4-cü, 12.2-ci maddələrində, 18.3-cü maddəsinin birinci cümləsində və 22.2-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.9. həmin Qanunun 18.3-cü maddəsinin birinci cümləsində və 22.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2019-cu il*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fondun layihələri çərçivəsində Bakının bir sıra tibb müəssisələrində olub





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva avqustun 20-də fondun layihələri çərçivəsində paytaxtdakı Talassemiya Mərkəzində, 1 saylı Şəhər Kliniki Xəstəxanasında, Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında müalicə olunan uşaqlarla və onların valideynləri ilə görüşüb.**

Heydər Əliyev Fondu ötən müddət ərzində səhiyyə və sosial sahələrdə bir sıra layihələr həyata keçirib. Bu layihələr sırasında "Talassemiyasız həyat naminə", ürək qüsurlu uşaqlar, xüsusi qayğıya ehtiyacı olan şəxslərə dəstək və digər səhiyyə və sosial proqramları qeyd etmək olar.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq məqsədilə növbəti dəfə paytaxtdakı Talassemiya Mərkəzində olub. Fondun təşəbbüsü ilə yaradılan Talassemiya Mərkəzinin əsas məqsədi ixtisaslaşdırılmış tibb ocağının və qan bankının təşkili, yüksəkixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qan komponentləri ilə təmin edilməsidir.

Daha sonra 1 saylı Şəhər Kliniki Xəstəxanasında müxtəlif şöbələrdə müalicə alan uşaqlara baş çəkildi, balacaların tezliklə sağalması arzuları ifadə olundu. Qeyd edildi ki, hazırda xəstəxananın uşaq-cərrahiyyə korpusunda 40-a yaxın uşaq müalicə alır.

Tibb müəssisələrində müalicə olunan uşaqlarla növbəti görüş Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında baş tutdu. Uşaqların müalicəsinin gedişi ilə maraqlanan Leyla Əliyeva fondun səhiyyə və sosial sahələrlə bağlı məsələləri daim diqqətdə saxladığını bildirdi.

Balacalara, həmçinin müxtəlif hədiyyələr təqdim edildi.









# Daxili İşlər naziri Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri ilə görüşüb



Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov avqustun 20-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sessera ilə görüşüb.

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanları ilə BQXK arasında əməkdaşlığın razılaşdırılmış Tədbirlər Planı və Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 2 iyun tarixli sərəncamı ilə təsdiq olunmuş Sazişə əsaslandığını xatırladaraq mövcud əlaqələrin inkişafını yüksək qiymətləndirib. Nazir qeyd edib ki, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunçuluğun möhkəmləndirilməsi, ona riayət olunması ölkəmizdə və o cümlədən DİN-də aparılan davamlı islahatların prioritet istiqamətlərindən olmaqla, bu sahədə bir sıra əməli tədbirlər həyata keçirilib. Belə ki, qəbul olunmuş yeni normativ sənədlərdə saxlanılan şəxslərin hüquqlarının müdafiəsi, hüquqi yardımdan istifadə edilməsi, şikayət və təkliflərin yuxarı instansiyalara verilməsi, habelə hüquq-müdafiə təşkilatlarının nümayəndələri və müstəqil ekspertlərlə maneəsiz görüşmək qaydaları və imkanları əksini tapıb. Eyni zamanda, saxlama yerlərinin fəaliyyətinin beynəlxalq normalara uyğun təkmilləşdirilməsi, saxlanılan şəxslərin hüquqlarının qorunması, onların saxlanma şəraitinin yaxşılaşdırılması istiqamətində konkret tədbirlər həyata keçirilib. DİN-in orqan və hissələrində fəaliyyət göstərən müvəqqəti saxlama təcridxanalarının demək olar ki, hamısında mövcud təlimatın tələblərinə və müasir standartlara uyğun əsaslı təmir işləri aparılmış, hamısı videonəzarət və təhlükəsizlik avadanlığı ilə təmin olunub.

General-polkovnik Vilayət Eyvazov deyib ki, BQXK-nın ölkəmizdəki nümayəndəliyinin xətti ilə 2003-cü ildən etibarən polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları üçün müxtəlif mövzularda seminar və təlimlər keçirilib. Bu təlimlərdə 700-dən artıq əməkdaş iştirak edib. Korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması, o cümlədən məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsi məqsədilə DİN tərəfindən vətəndaşlara 28 istiqamət üzrə elektron xidmət göstərilir.

Ətraflı məlumata görə nazir V.Eyvazova minnətdarlığını bildirən xanım Elena Aymone Sessera rəhbərlik etdiyi qurumun azadlıqdan məhrumetmə yerlərində apardığı işlər, keçirilən təlim kursları, eləcə də ölkəmizdə görəcəyi işlər barədə məlumat verib. O, Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın daha da genişlənməsində maraqlı olduqlarını qeyd edib.

# Türkiyəli mütəxəssislərin peşəkarlığı yüksək qiymətləndirildi



Avqustun 20-də Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Hərbi Hava Qüvvələrinin qəzaya uğramış "MiQ-29" təyyarəsinin axtarışlarında ölkəmizin müvafiq qurumları ilə birlikdə fəal iştirak edən Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələrinin xilasetmə qrupunun üzvləri ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir həlak olan pilot polkovnik-leytenant Rəşad Atakişiyevin ailəsinə, yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verib, qəza baş verdiyi andan bu istiqamətdə həyata keçirilən tədbirlərin daim ölkə rəhbərinin nəzarətində olduğunu xüsusi vurğulayıb.

General-polkovnik Z.Həsənov hadisə baş verən ilk gündən ordumuza dəstək göstərən, xilasetmə əməliyyatlarında iştirak etmək barəsində tərəfimizdən edilən müraciətə dərhal cavab verərək mütəxəssislərdən ibarət qrupu ölkəmizə göndərən Türkiyə Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirib.

Sonda türkiyəli mütəxəssislərin əzmkarlığını və peşəkarlığını yüksək qiymətləndirən Müdafiə naziri onlara fəxri fərman və qiymətli hədiyyələr təqdim edib.

# Prezident Kitabxanasında İrəvan xanları nəslinin nümayəndəsi Əmir Əli Sərdari İrəvani ilə görüş olub

Avqustun 20-də Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında İrəvan xanları nəslinin nümayəndəsi Əmir Əli Sərdari İrəvani ilə görüş olub.



Kitabxanadan AZƏRTAC-a bildirilib ki, tədbiri giriş sözü ilə açan direktor Mayıl Əhmədov İrəvan xanlığının tarixinin Azərbaycan xalqının min illər ərzində yaratdığı maddi və mənəvi mədəniyyət tarixinin ayrılmaz hissəsi olduğunu qeyd edib. O bildirib ki, XVIII əsrin ortalarında meydana gəlmiş İrəvan xanlığının Azərbaycan dövlətçilik tarixində özünəməxsus yeri var, xanlığın yarandığı ərazi qədim türk-oğuz yurdudur. İrəvan şəhəri Azərbaycanın qədim elm, təhsil və mədəniyyət mərkəzlərindən biri olub.

Mayıl Əhmədov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edib ki, indiki Ermənistan dövlətinin ərazisi tarixi İrəvan xanlığının ərazisidir. Ermənilər kütləvi surətdə həmin əraziyə 1827-ci ildə İrəvan xanlığının işğalından sonra köçürülüb. Məhz dövlət başçısının tapşırığı ilə 2010-cu ildə Tarix İnstitutunda "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" monoqrafiyası, İrəvan xanlığının tarixinə, maddi-mədəni irsinə dair müxtəlif dillərdə çoxsaylı broşürlər çap edilib. "İrəvan xanlığı" monoqrafiyasının müəllifləri 2012-ci ildə Dövlət mükafatı laureatı fəxri adına layiq görülüblər. Mükafata layiq görülən müəlliflər arasında kitabxanamızın əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa da var.

Mayıl Əhmədov bildirib ki, kitabxanada mövcud olan və İrəvan xanlığı ilə bağlı erməni müəlliflərinin əsərlərindəki faktlardan da istifadə edilməklə 2013-cü ildə "İrəvan şəhəri" portalı yaradılıb. Nazim Mustafanın müəllifi olduğu həmin elektron resurs Azərbaycan və rus dillərindədir. 2013-cü ildə Prezident Kitabxanasında təşkil edilən "Erməni vandalizmi: əsirlikdə olan Azərbaycan abidələri" sərgisində İrəvan xanlığı ərazisində, xüsusilə də İrəvan şəhərində dağıdılan tarixi-memarlıq abidələrinin təsvirləri nümayiş etdirilib.

Kitabxananın direktoru diqqətə çatdırıb ki, hazırda Almaniyada yaşayan Əmir Əli Sərdari İrəvani İrəvan xanı Hüseynəli xanın nəslinin nümayəndəsidir. İrəvanın bir şəhər kimi çiçəklənməsi məhz Hüseynəli xan və onun övladlarının hakimiyyəti dövrlərinə təsadüf edir. Bu gün İrəvanda yaşı 250 ildən artıq olan yeganə tarixi-memarlıq abidəsi Göy məscid kompleksidir. Həmin kompleks məhz Hüseynəli xanın dövründə 1760-1765-ci illərdə inşa edilib. Xan sarayının Güzgülü salonu və Xan bağındakı Yay köşkünü 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan inşa etdirib.

Mayıl Əhmədov qeyd edib ki, bugünkü görüşdə həm də İrəvanın sonuncu xanı Hüseynqulu xanın nəslinin Bakıda yaşayan nümayəndələri iştirak edirlər. Məhz bu görüşdə İrəvan xanlarının nəsilləri arasında canlı əlaqələr qurulur. Onların öz nəsilləri haqqında topladıqları məlumatları bir-biri ilə mübadilə etmələri və sonradan həmin məlumatların bir yerdə toplanılaraq tədqiqatçıların ixtiyarına verilməsi çox faydalı olardı.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, Əmir Əli Sərdari Bakıya "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri İradə Rizazadənin dəvəti ilə gəlib. Onunla bu görüşə İrəvan xanlığı və İrəvan şəhəri barəsində tədqiqat aparan və əsərləri çap olunan alimlər dəvət ediliblər.

Əmir Əli Sərdari İrəvani çıxış edərək İrəvan şəhərini qurub yaradanların Azərbaycan türkləri olduqlarını qeyd edib, Hüseynəli xan nəslinin şəcərəsi, onların məskunlaşdıqları yerlər haqqında geniş məlumat verib, nəsillər arasında əlaqələrin vacibliyini vurğulayıb.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktorunun müavini Cəbi Bəhramov, tarixçi alimlər Firdovsiyə Əhmədova, Elçin Qarayev, filoloq Cəlal Allahverdiyev, tədqiqatçı Telman Qasımov çıxış edərək İrəvan şəhərinin tarixi keçmişi haqqında ətraflı məlumat veriblər.

Tədbirdə İrəvanın köklü nəsillərinin nümayəndələrinin təmsilçilərinin fəaliyyətlərinin əlaqələndirilməsinin vacibliyi vurğulanıb. İştirakçılar kitabxananın konfrans zalında İrəvan xanlığı ilə bağlı nəşr edilən kitab sərgisi ilə tanış olublar.

# İslahatlar ölkənin iqtisadi inkişafını stimullaşdırır

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, həmin layihələrin icrası sayəsində 1,5 milyard manatlıq məhsul istehsal olunub. Onun da 300 milyon manatlıq hissəsi xarici bazara çıxarılıb.

Bölgələrdə sənaye sahəsi ilə yanaşı, aqrar sektorda da iri müəssisələrin yaradılması istiqamətində səmərəli iş aparılır. Regionlarda 51 aqroparkın yaradılması nəzərdə tutulub. Artıq 22 aqropark fəaliyyət göstərir. İlin sonuna qədər əlavə 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası üçün ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq. Qeyd edək ki, həmin layihələrin icrası 4 mindən çox yeni iş yerinin açılmasına imkan yaradır.



Həyata keçirilən iqtisadi siyasətdə sahibkarlığın inkişafı da diqqət mərkəzindədir. Bu məqsədlə dövlət daim sahibkarları dəstəkləyir, onların normal fəaliyyəti üçün qanunvericilik bazasını təkmilləşdirir, əsassız yoxlamaları ləğv edir, lisenziyaların alınması tələb olunan sahələrin sayı məhdudlaşdırılır və prosedurları sadələşdirilir, güzəştli şərtlərlə kreditlər verilir. Bunun nəticəsidir ki, ölkənin ümumi məhsul istehsalında özəl sektorun payı ildən-ilə artır. Vurğulayaq ki, qeyri-neft sektorunda məhsul istehsalının 77 faizi özəl sektora məxsusdur. Bu da ölkədə aparılan uğurlu iqtisadi siyasət və həyata keçirilən islahatlar nəticəsində mümkün olub.

Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə dövlətin investisiya və sahibkarlıqla bağlı siyasətinin beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildiyini qeyd edərək demişdir: "Biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycan 10 ən islahatçı ölkə kimi tanınır və biz 32 pillə irəliləmişik və hazırda 25-ci yerdəyik. Əlbəttə ki, bu, Azərbaycana investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır və oynayacaq. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir".

Biznes mühitinin inkişafına dövlət dəstəyi istər yerli, istərsə də xarici sahibkarları kapital qoymağa təşviq edir. Ölkəmizdə investisiya təşviqi sahəsində görülən işlər regionların inkişafında müsbət rol oynayır. İnvestisiya təşviqi mexanizminin uğurla icra edilməsi sayəsində bugünədək 400-ə yaxın layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Görülən işlər iqtisadi inkişafa töhfə verməklə yanaşı, 16 mindən çox yeni iş yerinin açılmasını da reallaşdırıb.

Ölkənin dinamik inkişafı və sahibkarlıq fəaliyyətinin güclənməsinə təkan verən başlıca amillərdən biri də kapital qoyuluşudur. İqtisadiyyatın ardıcıl kapitallaşması ölkənin ümumi inkişafını təmin edir. Ölkəmizin müstəqillik illərində keçdiyi inkişaf yoluna diqqət yetirdikdə görürük ki, kapital qoyuluşu ümumi tərəqqinin əsasını təşkil edir.

Cari ilin yanvar-iyul aylarında ölkə üzrə əsas kapitala 6131,6 milyon manat məbləğində vəsait qoyulub. İstifadə olunan vəsaitin 63,8 faizi istehsal obyektlərinin, 26,6 faizi xidmət sahələri üzrə obyektlərin, 9,6 faizi isə ümumi sahəsi 1087,7 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilən vəsaitin 71,3 faizini daxili investisiya təşkil edir. Bu da onu göstərir ki, yerli sahibkarlar ölkə iqtisadiyyatına investisiya qoyuluşunda fəaldır. Sözsüz ki, yerli sahibkarların belə fəallığının bir səbəbi də ölkədə mövcud olan münbit investisiya mühiti və onların hüquqlarını qoruyan qanunvericilik bazasıdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Mərhəmət ünvanı

## 1 saylı körpələr evinin sakinləri itirdikləri analarını Mehriban xanımın timsalında tapıblar

*Əvvəli 1-ci səh.*

Telefonu götürüb akt yazan polisə zəng vurdu:

- ... Peşmanam... Balamı mənə qaytarın...

... İki həftəlik ayrılıqdan sonra Bakıda kirayə qalan tələbə qız körpəsini köksünə sıxıb elə gəldiyi yolla da körpələr evindən uzaqlaşırdı...



Bu ağrılı hadisə təxminən bir ay bundan əvvəl 1 nömrəli körpələr evində baş verib. Körpələr evinin baş həkim əvəzi Simuzər Topçubaşova deyir ki, 35 ildir çalışdığı bu məkanda yüzlərlə buna bənzər hadisənin şahidi olub. İyulda isə gənc tələbə qız dünyaya gətirdiyi körpədən elə doğum evindəcə imtina etmək məcburiyyətində qalıb: "Qızın valideynləri rayonda yaşayır, özü isə burada kirayə qalır. Rəsmi nikahı olmadan uşaq dünyaya gətirib. Oğlan qızla evlənib uşağa atalıq etməkdən boyun qaçırıb. Qız da valideynlərinin qorxusundan heç nə deməyib. Qalıb çarəsiz. Doğum evindən çıxandan sonra neçə saat oturdu burada, ağladı. Polislə birlikdə nə qədər danışdıq, izah etdik, dedik, valideynlərinə xəbər ver. Nə isə, razılaşmadı və ərizə yazıb uşaqdan imtina etdi. 2 həftə sonra akt yazan polis mənə zəng elədi. Dedi, Simuzər xanım, o qız mənə zəng vurub ağlayır ki, uşağı geri götürmək istəyirəm. Dedim, gəlsin, ərizəsini yazsın. Yaxşı ki, uşağı övladlıq qeydiyyatına salmamışdıq. Gəldi, ərizəsini yazdı, uşağını da götürüb getdi. Çox sevindik buna. Səhvini başa düşdü hər halda. Təəssüf ki, həmişə belə olmur. Elə olur ki, körpələr evinə müvəqqəti verilmiş uşağın valideyni 3 il ərzində bir dəfə də olsun balasına baş çəkmir. Burada o qədər "analar" görmüşük ki... Adam baxanda məəttəl qalır ki, bunlar necə anadır?! Halbuki illərlə övlad həsrəti çəkən ailələr var".







### "Mehriban xanım bütün körpələrin mənəvi anasıdır"

Bakının Nəsimi rayonunda yerləşən 1 nömrəli körpələr evi 1930-cu ildə tikilmiş ikimərtəbəli binada fəaliyyət göstərib və uzun illər təmir edilmədiyinə görə yararsız hala düşmüşdü. İlk dəfə 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən təmir edilən binada 2014-cü ilin oktyabrında yenidən fondun dəstəyi ilə əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. 2015-ci il mayın 10-da Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva körpələr evinin yenidənqurmadan sonra açılışında iştirak edib. Elə bu ilin fevral ayının 11-də Mehriban xanım yenidən körpələr evinə baş çəkərək buranın balaca sakinləri ilə görüşüb. Əlbəttə ki, körpələr evini növbəti dəfə ziyarət etməsi Mehriban xanım Əliyevanın kimsəsiz uşaqlara nə dərəcədə həssaslıqla yanaşdığını, onlarla mütəmadi olaraq maraqlandığını bir daha nümayiş etdirir.

Körpələr evinə gəlincə, əsaslı təmir nəticəsində bina tamamilə yenilənib, müasir havalandırma sistemi qurulub, su, qaz, işıq xətləri təzələnib, həyətyanı sahə abadlaşdırılıb. Körpələr evi müasir çarpayılar, oyuncaqlar, bütün lazımi avadanlıqlarla təmin edilib. Bina kamera sistemi ilə təchiz olunub. Hər yaş qrupuna məxsus otağın qarşısındakı həyətdə oyun meydançası və yelləncəklər quraşdırılıb. Binada hovuz da var. Binadakı otaqlarla bir-bir tanış oluruq. Simuzər xanım məlumat verir ki, körpələr evində 5 qrup var. Hazırda onlardan üçü işlək vəziyyətdədir. Çünki uşaqların sayı çox deyil: "Əvvəllər uşaqların sayı çox idi. Sevindirici haldır ki, son illər körpələr evinə gətirilən uşaqların sayı azalıb. Hazırda 15 uşağımız var. Bu körpələr evi 3 yaşına kimi uşaqlara himayədarlıq edir. Uşaqların çoxu burada daimi qalmır. Çünki burada 3 cür uşaqlar var - müvəqqəti qoyulan, imtina edilən və atılmış uşaqlar. İmtina edilən və atılan körpələrə biz özümüz ad, soyad qoyuruq. Atılmışları isə 6 ay gözlədikdən sonra övladlıq qeydiyyatına salırıq ki, bəlkə bu müddət ərzində valideynləri, qohumları gəlib taparlar".

Təəssüf ki, əksər vaxtlarda heç kim atılmış körpənin dalınca gəlmir. Körpənin fiziki qüsuruna, yaxud xəstəliyinə görə ondan imtina edən valideynlər də var. Daun sindromlu iki uşaq və fiziki qüsurlu bir oğlan məhz bu cür valideynlərin ucbatından körpələr evinin sakininə çevriliblər. Ata-anaları elə doğum evindəcə onlardan imtina ediblər: "İndi bizim bir fiziki qüsurlu uşağımız var. Ayaq əzələləri inkişaf etməyib. Heydər Əliyev Fondu o balanın bütün müalicəsini öz üzərinə götürüb. Bir az böyüyəndən sonra ona protez qoyulacaq. Ondan sonra yeriyə biləcək. Ümumiyyətlə, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və vitse-prezidenti Leyla Əliyeva tez-tez bizə baş çəkirlər, uşaqların qayğıları, problemləri ilə maraqlanırlar. İkisi də çox mehriban, qayğıkeş, uşaqcanlıdır. Müalicəyə ehtiyacı olan uşaqlara kömək edirlər. Bir uşağımızın başına doğuş zamanı su yığılmışdı. Fondun dəstəyi ilə əməliyyat olundu, artıq heç bir problemi yoxdur. Çox sağ olsunlar, körpələr üçün nə lazımdırsa, edirlər. Dəstəklərini, qayğı və sevgilərini əsirgəmirlər. Mehriban xanım bütün körpələrin mənəvi anasıdır".

Bütün bunlar sübut edir ki, Heydər Əliyev Fondu gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir.





### Heç bir körpənin gözü yolda qalmasın

Simuzər Topçubaşova qeyd edir ki, hər qrupun öz həkimi var, uşaqları hər gün müayinə edir. Hətta körpələr evində fizioterapiya otağı da fəaliyyət göstərir. Lakin körpə nasazladısa, asqırıb öskürməyə başladısa, göstərişlə Ə.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanasına göndərilir. Uşaqlar müalicə olunub sağalandan sonra yenidən bura qayıdırlar.



Körpələr evindəki uşaqlar yaşlarına uyğun olaraq rejimlə qidalanıb yatırlar. Böyük uşaqların yeməyi elə evdəki yeməkxanada bişirilir. Əksər paltarları, yataq dəstləri ümumi camaşırxanaya göndərilir. Uşaqların saçlarını isə yaxınlıqda işləyən bərbər öz istəyi ilə təmənnasız şəkildə gəlib qırxır: "Öz evimizdə uşaqlarımızı necə böyüdürüksə, buradakı körpələri də elə böyüdüb qayğılarına qalırıq. İşçilər bütün günü ayaq üstədirlər, bir dəqiqə oturub dincəlmirlər. Uşaqların dalınca gəzirlər. Özü də burada hər adam işləyə bilməz. O qədər işçi gəlib, amma işləyə bilmədiyi üçün çıxıb gedib. Gərək uşaqlara qarşı içində böyük sevgi və səbir, hövsələ olsun ki, işləyə biləsən. Bu, çox çətin və məsuliyyətli, həm də sevgi dolu işdi. Məgər eyni vaxtda bir neçə körpəyə analıq etmək özü də xoşbəxtlik deyilmi?! Amma biz bu balaları nə qədər sevsək də, qayğı göstərsək də, əsl ata-ana məhəbbətini əvəz edə bilmərik. Hansı uşaq istəməz ailəsi olsun? Burada bir uşağın yanına valideyni gələndə bütün uşaqlar həmin adamın yanına qaçır... Hazırda bir qızımızın işi məhkəmədədi, onu övladlığa götürürlər. Ata-anası tez-tez gəlib-gedir yanına. Artıq qız onları valideyni kimi tanıyır, onları ata-ana bilir. Darıxır onlar üçün, hər gün yollarını gözləyir. Onlarla birlikdə evlərinə gedəcəyi günün həsrətindədir".

Əslində, bütün uşaqlar eynidi. Hamısı ana sığalı, ata qayğısı istəyir. Hamısı isti yuva arzulayır. Bəzilərinin şansı gətirir, o yuvaya sahib olur. Bəzilərinin isə gözü ömür boyu yollarda qalır. Uşaq valideyndən yalnız və yalnız sevgi istəyir, başqa heç nə. Balalarınızı o sevgidən məhrum etməyin ki, heç bir körpənin gözü yolda qalmasın. Heç bir körpə ata-anasız böyüməsin.

***Xəyalə MURADLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Bölgələr tarazlı, davamlı inkişaf mərhələsindədir

## Prezident İlham Əliyevin sosial-iqtisadi strategiyası əsasında reallaşan dövlət proqramları regionların simasını büsbütün dəyişib

*Əvvəli 1-ci səh.*

Onu da əlavə edək ki, dövlət başçısının tapşırığına uyğun olaraq regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün də vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır. Regionlarda 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb.

Artıq nəticələr də var. 22 aqropark faktiki fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq. Eyni zamanda, bu layihələrin icrası nəticəsində 4 mindən çox yeni iş yeri açılacaq.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının əsas məqsədlərindən biri də məhz sosial sahədə layihələrin həyata keçirilməsi idi. Bu sahədə də böyük həcmdə işlər görülüb. Belə ki, regionlarda 3 mindən çox məktəb yenidən tikilib və ya əsaslı şəkildə təmir olunub. İki ildir artıq yeni yanaşma da mövcuddur - modul tipli məktəblərin tikintisinə də başlanılıb. Bununla yanaşı, yeni xəstəxanalar, idman komplekslərinin inşası da davam etdirilir.

Göründüyü kimi, regionların inkişafını özündə ehtiva edən dövlət proqramlarının vaxtında və yüksək səviyyədə icra olunması Azərbaycanın ümumi iqtisadi gücünü artırmaqla yanaşı, istehsal müəssisələrinin fəaliyyətinin bərpasına, yeni istehsal müəssisələrinin yaradılmasına, regionların inkişafı üçün zəruri infrastrukturun qurulmasına, aqrar sektorda islahatların sürətləndirilməsinə yol açıb.

Hazırda regionların sosial-iqtisadi inkişafına dair IV dövlət proqramının icrası uğurla davam etdirilir. Prezident İlham Əliyev keçirdiyi son müşavirədə bu sənədi çox genişmiqyaslı proqram adlandırıb: “Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə IV dövlət proqramı qəbul edilib. Bu, çox genişmiqyaslı proqramdır. Baxmayaraq ki, son illərdə infrastruktur layihələri ilə bağlı bir çox işlər görülmüşdür, bu günə qədər həllini tapmayan məsələlər də bu proqramın icrası nəticəsində öz həllini tapacaq”.

Nəzərdə tutulan sosial infrastruktur layihələrinə gəlincə isə, Prezident vurğulayıb ki, bu il onlarla məktəb tikiləcək, 10 şəhərdə mərkəzi xəstəxana yenidən qurulacaq, yaxud da əsaslı təmir olunub istifadəyə veriləcək. Olimpiya idman kompleksləri inşa olunacaq. Digər sosial infrastruktur layihələrinin icrası ilə bağlı da konkret proqramlar, planlar var və bütün bunlar Dövlət İnvestisiya Proqramında öz əksini tapır.

İlkin hesablamalara görə, “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir.

IV dövlət proqramında kənd təsərrüfatı və sənaye istehsalı xüsusi yer tutur. Çünki həyata keçirilən infrastruktur layihələrinin böyük hissəsi başa çatdığı üçün iqtisadiyyatın real sektoru, kənd təsərrüfatı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir.

Bir sözlə, uğurla icra edilən dövlət proqramları ölkəmizin inkişafında mühüm rola malik olmaqla yanaşı, vətəndaşlarımızın sosial rifahının yüksəlişində də əsaslı yer tutur. Həyata keçirilən dövlət siyasətinin əsasını Azərbaycanın, o cümlədən onun bölgələrinin daha gözəl, daha qüdrətli, insanların isə daha xoşbəxt və firavan yaşamasına xidmət təşkil edir. Hər kəsə bəllidir ki, həyata keçirilən dövlət proqramları regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayır.

Əminliklə deyə bilərik ki, ötən il olduğu kimi, bu il də Azərbaycanın hər bir şəhərində, rayonunda, qəsəbə və kəndində quruculuq-abadlıq işləri davam edəcək. Yeni qəbul olunan dövlət proqramına uyğun olaraq regionların inkişafı istiqamətində mühüm işlər görüləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# “Azərişıq” ASC qərb regionunda yenidənqurma işlərini davam etdirir

**“Azərişıq” ASC ölkənin regionlarında apardığı tikinti, yenidənqurma, bərpa işlərini qərb regionunda da davam etdirir. İstismar müddətini başa vurmuş elektrik şəbəkələri yenidən qurulur.**




Texniki itkilərin səviyyəsinin minimuma endirilməsi, kənd təsərrüfatı, sənaye, turizm və digər iaşə obyektlərinin, o cümlədən əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün 2019-cu ilin 8 ayında qərb regionunda bir sıra əhəmiyyətli işlər həyata keçirilib və hazırda davam etdirilir.

Belə ki, Gəncə şəhərində yeni salınmış 35/10 kV-luq “Məhsəti” yarımstansiyasını elektrik enerjisi ilə təchiz etmək məqsədilə 110/10 kV-luq “Yeni-Gəncə” yarımstansiyasından iki dövrəli 3,1 km uzunluğunda 35 kV-luq yeraltı kabel xətti çəkilib. Sözügedən qəsəbədə yeni 10 kV-luq hava xətti çəkilib və 5 ədəd komplekt transformator məntəqəsi şəbəkəyə qoşulub. Gəncə şəhərindəki 110/10 kV-luq “Mərkəz” və 35/6 kV-luq “Vağzalyanı-1” yarımstansiyaları yenidən qurularaq istifadəyə verildikdən sonra istehlakçılar 24 saat dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunurlar. Eyni zamanda şəhərdəki yeni yaşayış massivlərinin, sənaye obyektlərinin elektrik enerjisi ilə təchiz edilməsi üçün yeni komplekt transformator məntəqələri quraşdırılır, hava xətləri çəkilir. Bütün bunlarla yanaşı, şəhər ərazisində yeni salınmış yaşayış massivlərində “Azərişıq” ASC tərəfindən verilmiş texniki şərtlərin icrası ilə bağlı (yeni sayğacların quraşdırılması üçün) 0,4 kV-luq şəbəkələr qurulur. Belə ki, həmin ərazilərdə 396 ədəd 0,4 kV-luq yeni metal boru dayaqlar quraşdırılmışdır. 10 km-dən artıq məsafədə yeni ÖİN (SİP kabel) çəkilmişdir.

Şəmkir Elektrik Şəbəkəsi üzrə 110 və 35 kV-luq yarımstansiyalarda və elektrik verilişi xətlərində əsaslı və cari təmir işləri aparılmış, 35 kV-luq “I Şəmkir” h/x-də 46 ədəd çürük dayaq yeni metal dayaqla əvəz olunmuşdur.35 kV-luq C.Cabbarlı h/x-də 25 ədəd aralıq və 4 ədəd ankerdayaq dəyişdirilmişdir. Şəbəkənin xidməti ərazisində 558 ədəd yeni sayğac quraşdırılmış,1769 ədəd sayğac yenisi ilə əvəzlənmiş, 660 ədəd sayğac isə çölə çıxarılmışdır.

Ağstafa Elektrik Şəbəkəsi üzrə 110 və 35 kV-luq yarımstansiyalarda və elektrik verilişi xətlərində əsaslı və cari təmir işləri görülmüşdür. 110/35/10 kV-luq 2x20 mVA gücündə olan “Ağstafa” yarımstansiyası tamamilə yenidən qurularaq yerində müasir standartlara cavab verən 110/35/10 kV-luq 2x25 MVA gücündə yarımstansiya tikilmişdir. 10/35/10 kV-luq “Ağstafa” yarımstansiyasının yenidən qurulması ilə əlaqədar ərazidəki 110 kV-luq 5,6,7-ci “Ağstafa” h/x-də 450 ədəd qüsurlu PS-70 izolyator və 1500 kq AS-185 markalı naqillər dəyişdirilmişdir. 5 ədəd 110 kV-luq dayaq rənglənmişdir. 110/35/10 kV-luq “Ağstafa” yarımstansiyasından çıxarılmış 1 x 20 mVA gücündə olan transformator quraşdırılması üçün 110/10 kV-luq “Poylu- Dartı” yarımstansiyasına daşınmışdır.

Samux, Qazax, Gədəbəy, Tovuz, Daşkəsən və Göygöl Elektrik Şəbəkələri üzrə də yeni yarımstansiyalar inşa olunur, hava xətləri yenilənir. Bütün rayonlarda 0,4 kV-luq elektrik şəbəkələrinin ÖİN kabellərlə əvəzlənməsi işləri davam etdirilir, yeni avadanlıqlar (dayaqlar, SİP kabellər, KTM-lər və s.) qurlaşdırılır, sayğaclar dəyişdirilir.

***“Azərbaycan”***

# Neft və qaz əsas iqtisadi potensial olaraq qalır

*Əvvəli 1-ci səh.*



“Əsrin müqaviləsi”ndən sonra yeni start götürən Azərbaycan neft-qaz sənayesi son 15 ildə daha böyük yüksəlişə nail olub. 1997-ci ilin noyabrında “Çıraq” platformasından ilkin neft çıxarılandan bəri “Azəri-Çıraq-Günəşli” (AÇG) layihəsi çərçivəsində hasilat ahəngdar davam edir. Hazırda AÇG müqavilə sahəsində 8 platforma fəaliyyət göstərir. Onların 6-sı hasilat platformasıdır. 2005-ci ildə ilk yükünü qəbul edən Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə tam bir sistem kimi işə düşüb. Ötən illər ərzində Azərbaycan özünü həm də qaz ixrac edən ölkə kimi təsdiqləyib. 12 ildən çoxdur Gürcüstana və Türkiyəyə “Şahdəniz” yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində çıxarılan qaz nəql olunur. Bakı-Tbilisi-Ərzurum kəmərinin uğurlu fəaliyyəti ölkəmizə imkan verib ki, daha uzaq məsafələrə qaz dəhlizi açaq. Artıq “Cənub qaz dəhlizi”nin dörd seqmentindən üçü hazırdır. Bir ildən çoxdur Türkiyəyə həm də TANAP-la (Transanadolu Qaz Boru Kəməri) mavi yanacaq çatdırılır. Bu, “Şahdəniz-2”nin qazıdır. Tikintisi sona yaxınlaşan TAP (Transadriatik Qaz Boru Kəməri) gələn il mavi yanacağı neçə-neçə Avropa ölkəsinə də nəql edəcək.

Neft-qaz layihələri Azərbaycana böyük gəlirlər gətirir və gələcəkdə onların həcmi daha da artacaq. Keçən il ölkəmizdə 38,8 milyon ton neft və 30 milyard kubmetr qaz hasil olunub. Bu rəqəmlər neftin Azərbaycan üçün qara qızıl olaraq qaldığını təsdiqləyir. Xəzərin dərinliklərindən çıxarılan mavi yanacaq isə Azərbaycanın həm qaz ixrac edən ölkə kimi şöhrətini, həm də gəlirlərini artırır. Bu barədə Prezident İlham Əliyev cari ilin yanvar ayında keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda belə demişdir: “Əlbəttə ki, bizim iqtisadiyyatımızın əsas sahəsi neft-qaz sektorudur. Bu, bu gün belədir, əvvəl də belə olub və bundan sonra da belə olacaq. Biz sadəcə olaraq çalışırıq ki, qeyri-neft sektorunu sürətlə inkişaf etdirək, buna nail oluruq. Ancaq hansı ictimai-siyasi formasiyada yaşamasına baxmayaraq, Azərbaycanda ilk neft tapılan dövrdən bu günə qədər bu, əsas iqtisadi potensial olub”.

Qeyd edək ki, 1997-ci ilin payızından 2018-ci ilin sonunadək AÇG yataqlarından 3,5 milyard barel neft hasil olunub. 2006-cı ildə “Şahdəniz” yatağından ilk qazın çıxarıldığı vaxtdan keçən ilin sonunadək 100 milyard kubmetr mavi yanacaq əldə edilib. Bu barədə BP Azərbaycan şirkətinin 2018-ci ilə aid “Davamlı inkişaf haqqında hesabat”ında məlumat verilib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatında AÇG və “Şahdəniz” üzrə əldə olunan gəlirlər açıqlanıb. Belə ki, AÇG-dən 2001-ci ildən bu il iyulun 31-dək 143 milyard 366 milyon ABŞ dolları həcmində gəlir əldə olunub. AÇG yataqlarından cari ilin əvvəlindən həmin vaxtadək gələn gəlir 5 milyard 160 milyon dollar təşkil edib. O cümlədən “Şahdəniz” kondensatının satışından 7 ay ərzində gəlir 209 milyon dollar olub.

“Şahdəniz” yatağı üzrə qazın satışından əldə edilən ümumi gəlirlər isə 2007-ci ildən bu il iyulun sonunadək 2 milyard 703 milyon dollara çatıb.

Xatırladaq ki, 2017-ci il sentyabrın 14-də “Azəri-Çıraq-Günəşli” yataqları üzrə dəyişdirilmiş və yenidən işlənmiş Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) imzalanması Azərbaycanın neft-qaz potensialının böyük olduğunu bir daha sübut etdi. 2050-ci ilədək AÇG yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar ARDNF-yə 3,6 milyard dollar bonus ödəyəcəklər. Keçən il yanvarın 29-da ARDNF-yə yeni sazişə uyğun olaraq 450 milyon ABŞ dolları həcmində ilk bonus ödənişi həyata keçirilib.

Azərbaycanda neft və qaz hasilatı ahəngdar davam edir. Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə cari ilin 6 ayında bu sektorda qazanılan uğurların təqdirəlayiq olduğu vurğulanıb.

Belə ki, birinci yarımillikdə AÇG platformalarından ümumilikdə 98 milyon bareldən çox, yəni 13 milyon ton neft hasil olunub. Gündəlik orta hasilat 542 min 400 barel təşkil edib. Yarım il ərzində BTC kəməri vasitəsilə 16 milyon ton xam neft ixrac olunub və bu neft Ceyhanda 149 tankerə yüklənib. Sözügedən dövrdə “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarından ümumilikdə 8,4 milyard standart kubmetr qaz və 14,4 milyon barel kondensat hasil edilib.

Bütün bunlardan əlavə, Azərbaycan neftçiləri qurudakı və dənizdəki köhnə yataqlardan da neft və qaz çıxarırlar. Hasilatın sabit saxlanılması və artırılması üçün çoxsaylı tədbirlər həyata keçirilir. Keçən il dekabrın 24-də “Bulla-dəniz” yatağında istismara verilmiş yeni stasionar özül buna aydın misaldır. Daha onlarca belə misal göstərmək olar. Yəni ölkədə həyata keçirilən meqalayihələrlə paralel olaraq daxili istehsalın vacibliyi də diqqət mərkəzindədir.

Təqdirəlayiq haldır ki, Azərbaycan dövləti neftdən və qazdan əldə olunan gəlirləri qeyri-neft sektorunun şaxələndirilməsinə, insan kapitalının inkişafına yönəldir. Bu gəlirlər eləcə də böyük nəqliyyat layihələrinin gerçəkləşməsinə imkan yaradıb. Nəticədə Azərbaycan təkcə regionun deyil, bütün Avrasiya məkanının nəqliyyat mərkəzinə çevrilib. Bütün bunlara görə də dövlət iqtisadiyyatın çoxşaxəli inkişafını qarşıya prioritet kimi qoyub, həm neft və qaz sənayesində, həm də digər sahələrdə görülən işlərin daim gündəmdə qaldığını bəyan edib.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# 6 ayda 6 faiz artım

Dövlət Statistika Komitəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ilkin məlumatlarına əsasən, cari ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə yönəldilmiş vəsaitin məbləği haqqında məlumatı açıqlayıb.

Bildirilir ki, 6 ayda bu məbləğ ötən ilin müvafiq dövrünə nisbətən 3,4 faiz artaraq 1 milyard 854,8 milyon manata çatmışdır. Vəsaitin 97,7 faizini pensiya xərcləri təşkil etmişdir.

Cari il iyulun 1-i vəziyyətinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda 1 milyon 291,3 min nəfər pensiyaçı qeydiyyatda olmuşdur ki, bu da ölkə əhalisinin 13 faizini təşkil edir. Onların 58,4 faizi yaşa, 30 faizi əlilliyə, 11,6 faizi ailə başçısını itirdiyinə görə pensiya alır. Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 faiz artaraq 232,3 manat təşkil etmiş və orta aylıq əmək haqqının 39,7 faizinə bərabər olmuşdur.

Xatırladaq ki, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə” 2019-cu il 19 fevral tarixli qanuna əsasən, bu il martın 1-dən əmək pensiyasının minimum məbləği 160 manat müəyyən edilmişdir.

Məlumatda daha sonra bildirilir ki, cari il iyulun 1-i vəziyyətinə 383,6 min nəfərə sosial müavinətlər təyin olunmuşdur. Yaşa görə müavinət alanların sayı 68 min, əlilliyə görə 173 min, ailə başçısını itirməyə görə 47,1 min, sağlamlıq imkanları məhdud olduğuna görə 18 yaşadək uşaqların sayı isə 66,1 min nəfər qeydə alınmışdır.

Bundan əlavə, sözügedən dövrdə əmək pensiyası almaq hüququ olmayan 1,6 min nəfərə kommunal, nəqliyyat və digər xidmətlər üçün müavinət verilmişdir. Həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların 286 nəfər qəyyumuna aylıq müavinət ödənilmişdir. Bununla yanaşı, şəhid ailələrinin, müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan, eləcə də Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş, yaxud vəfat etmiş şəxslərin, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının və müddətli hərbi xidmət qulluqçularının 9 min ailəsi 16,1 min uşaq üçün aylıq müavinət almışdır. Eyni zamanda, 1294 nəfər bir yaşınadək uşağı olan 1269 aztəminatlı ailəyə və 5-dən çox uşağı olan 2,7 min qadına sosial müavinət verilmişdir.

Hesabat dövründə həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 32102 ailəyə 34241 uşağın anadan olmasına görə, 4126 nəfər radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxsə müalicə üçün və 3355 nəfər penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxsə birdəfəlik müavinətlər ödənilmişdir. Əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkən kimi kompensasiya alan şəxslərin sayı isə 380 nəfər olmuşdur.

Sonda məlumat verilir ki, Prezident təqaüdü təyin edilmiş müxtəlif kateqoriyadan olan şəxslərin sayı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,8 dəfə artaraq 239,8 min nəfərə çatmışdır.

***“Azərbaycan”***


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

*açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**“BakıTelefon Rabitəsi” MMC tərəfindən tələb olunan IPTV/OTT xidmətinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **1100 (bir min yüz) manat (ƏDV daxil) iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **06 sentyabr 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *İddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
- *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender təklifini və bank təminatını **16 sentyabr 2019-cu il saat 17:00-a qədər** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklif zərfləri **17 sentyabr 2019-cu il saat 15:00-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs:
**Novruzova Turanə, tel.: (+994 12) 493-22-99**

***Tender komissiyası***


# Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Şıxlar, Baş Qərvənd, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Təhsil müəssisələrinin qazlaşdırılmasının satın alınması üzrə

## *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Təhsil müəssisələrinin qazlaşdırılmasına dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 17 sentyabr 2019-cu il tarixdə saat 15:00-da Dövlət satınalmalarının vahid portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak üçün portal vasitəsilə elektron elanla tanış ola və 450 (dörd yüz əlli) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

*Tender komissiyası*

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 22.08.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərməsi imkanı təmin ediləcəkdir.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 21-də Göygöl rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller aparacaqlar.

## BİLDİRİŞ

Sizi Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-1.2 maddəsinə uyğun olaraq 20 sentyabr 2019-cu il saat 11:00-da səhmdarların növbədənkənar ümumi yığıncağına dəvət edirik.

**Ümumi yığıncağın gündəliyi aşağıdakılardan ibarətdir:**

1. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına dair idarə heyətinin hesabatı;
2. Cəmiyyətin müşahidə şurasının, idarə heyətinin və təftiş komissiyasının formalaşdırılması;
3. Cəmiyyətin balansında olan əsas vəsaitlərin istismara yararlılıq vəziyyətinin müzakirəsi;
4. Səhmdar cəmiyyətin yenidən təşkili, tərkibindən ayrılma nəticəsində yeni hüquqi şəxsin məsələsinə baxılması və müzakirəsi;
5. Cəmiyyətin yenidən təşkil edilməsi ilə əlaqədar müstəqil auditor yoxlamasının aparılması, bölünmə balansının hazırlanması məsələsinin müzakirəsi;
6. Cəmiyyətin nizamnamə kapitalına yenidən baxılması;
7. Cəmiyyətin istifadəsində olan torpaq sahəsinin özəlləşdirilməsi məsələsinin müzakirəsi;
8. Digər məsələlər.

**Yığıncağın keçirildiyi ünvan: Bakı şəhəri, Qaradağ rayonu Qaradağ dəmiryol stansiyası**

**Əlaqələndirici şəxs: Xaliq Nuriyev. Telefon: (+99450) 255-84-94**

**Qeyd: Yığıncağa gəldikdə şəxsiyyət vəsiqənizi özünüzlə gətirməyiniz xahiş olunur.**

***"Qaradağ Tikinti Quraşdırma" ASC***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Cəlilabad rayonu, Kazımabad kənd 420 şagird yerlik tam orta məktəbin əsaslı təmiri üçün layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması üzrə

## *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Cəlilabad rayonu, Kazımabad kənd 420 şagird yerlik tam orta məktəbin əsaslı təmiri üçün layihə-smeta sənədlərinin hazırlanmasına dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 17 sentyabr 2019-cu il tarixdə saat 16:00-da Dövlət satınalmalarının vahid portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak üçün portal vasitəsilə elektron elanla tanış ola və 50 (əlli) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 05 iyul 2019-cu il tarixdə elan edilmiş "110/35/6 kV-luq Sumqayıt-3 YS-dan Yağ, Plastik və Karton zavodlarına 35 kV-luq kabel xəttinin çəkilməsi" işlərinin satın alınması üzrə dövlət satınalmalarının vahid internet portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "ELECTRO INDUSTRIES" QSC tenderin qalibi müəyyən edilmişdir. Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 2 033 168,37 (iki milyon otuz üç min yüz altmış səkkiz manat 37 qəpik) AZN məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Hərbi pilotun nəşi və təyyarənin qalıqları tapılaraq dənizdən çıxarılıb

**İyulun 24-də plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin "MiQ-29" təyyarəsinin pilotu, polkovnik-leytenant Atakişiyev Rəşad Saləddin oğlunun nəşi və təyyarənin qalıqları tapılaraq dənizdən çıxarılıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 21-də saat 10.00-da Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində hərbi pilotla vida mərasimi keçiriləcək.

Hazırda hərbi pilotun dəfninin təşkili ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

## Müdafiə Nazirliyinin rəhbərliyi axtarış əməliyyatlarında fəal iştirak edənlərə təşəkkürünü bildirib

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi Hərbi Hava Qüvvələrinin "MiQ-29" təyyarəsinin qəzaya uğradığı ilk gündən pilotun nəşi və təyyarənin qalıqlarının axtarışlarında fəal iştirak edən aidiyyəti qurumların nümayəndələrinə təşəkkürünü bildirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, axtarış əməliyyatlarına Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri ilə birgə Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələrinin xilasetmə qrupunun üzvləri, Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıcları və katerləri, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Vaqif Cəfərov" kran, "Neftegaz-58" təchizat-yedək, "Məmməd Süleymanov" elmi-tədqiqat gəmilərinin heyətləri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dalğıcları cəlb olunublar.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## Beynəlxalq aləm

### Conson Brexit sazişinə yenidən baxmağı təklif edir

Böyük Britaniyanın Baş Naziri Boris Conson Avropa İttifaqı (Aİ) Şurasının sədri Donald Tuska müraciət edərək Aİ ilə Tereza Mey hökuməti arasında razılaşdırılmış Brexit sazişinin İrlandiya ilə Şimali İrlandiya arasında sərhədə aid hissəsinə yenidən baxmağı təklif etmişdir. Conson Tuska göndərdiyi məktubda Brexitdən sonra Aİ-nin üzvü olan İrlandiya ilə Böyük Britaniyanın Şimali İrlandiya bölgəsi arasında sərt sərhədin qoyulmasının qarşısını alan müvəqqəti qərarın (Bekstop) antidemokratik olduğunu bildirmiş və qeyd etmişdir ki, bu, Birləşmiş Krallığın dövlət kimi suverenliyi ilə bir araya sığmır.

Consonun fikrincə, Bekstop Böyük Britaniyanı Avropa Gömrük İttifaqının qaydalarına əməl etməyə məcbur edəcək, bu isə öz növbəsində Birləşmiş Krallığın Aİ ilə sabit uzunmüddətli münasibətlər qurmaq istəyinə uyğun gəlmir. Baş Nazir Bekstop əvəzinə Böyük Britaniya və Aİ-nin İrlandiya-Şimali İrlandiya sərhədində sərhəd nəzarətindən imtina etmək təklifini irəli sürür. Conson hesab edir ki, keçid dövrü başa çatanadək alternativ sazişlər qəbul ediləcək və bu sənədlər Aİ ilə Britaniya arasında gələcək ticarət sazişinin tərkib hissəsi olacaq.

### Türkiyənin üç vilayətində antiterror əməliyyatı başladı

Türkiyənin Hakkari, Şırnak və Van vilayətlərində jandarma və təhlükəsizlik qüvvələrinin iştirakı ilə PKK separatçı terrorçu təşkilatına qarşı əməliyyat başlamışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

129 briqadanın cəlb olunduğu əməliyyat çərçivəsində çöllər və otlaqlar yoxlanılır, terrorçuların sığınacaqları ləğv olunur. Daxili İşlər Nazirliyinin verdiyi məlumata görə, indiyədək 43 sığınacaq ləğv edilmişdir. Əməliyyat bölgədəki terrorçular tamamilə neytrallaşdırılanadək davam edəcək.

### Ərəb koalisiyası Yəmən qiyamçılarının blokpostlarını bombalayır

Səudiyyə Ərəbistanının başçılıq etdiyi ərəb koalisiyası Yəmənin paytaxtı Sənada qiyamçılara qarşı yeni əməliyyata başlamışdır. Bu barədə "əl-İxbariyyə" telekanalı xəbər verir.

Əməliyyatın məqsədi qiyamçıların paytaxtdakı blokpostlarını darmadağın etməkdir. Ərəb koalisiyası Səna əhalisini blokpostlara yaxınlaşmamağa çağırmışdır.

Xatırladaq ki, Yəməndə silahlı münaqişə 2014-cü ildən bəri davam edir. "Ənsar Allah" şiə hərəkatından olan qiyamçılar ölkənin bir sıra regionlarını, o cümlədən paytaxt Sənanı nəzarət altına almışdır.

Silahlı münaqişə başlayandan bəri ölkənin təxminən 3 milyon sakini məcburi köçkün vəziyyətinə düşmüşdür.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşları Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ MİRPAŞA QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi aparat rəhbəri Rauf Quliyevə əzizi

**VİLAYƏT QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elçin və Zakir Quliyevlər Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları, Hidrotexnika və Meliorasiya Elm-İstehsalat Birliyinin "Qeyri-ənənəvi sulardan istifadə" laboratoriyasının müdiri, aqrar elmləri doktoru

**OFELİYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi akademiyanın əməkdaşı Tahir Baxşəliyevə qızı

**NÜBAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9003
Sifariş 2735
Qiyməti 40 qəpik